46 (1301) 30 noyabr - 6 dekabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN MÜASİR STANDARTLARA UYĞUN YENİ İNZİBATİ BİNALARI İSTİFADƏYƏ VERİLDİ



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak edib.

Dövlətimizin başçısına məlumat verildi ki, inşasına 2021-ci ilin martında başlanmış inzibati binaların tikintisi bu ilin avqustunda yekunlaşıb. İnşaat işləri müasir standartlara uyğun aparılıb, binalar bütün zəruri avadanlıq və inventarlarla təmin olunub, burada əməkdaşların xidməti fəaliyyətlərini səmərəli həyata keçirmələri üçün hər cür şərait yaradılıb.

Binanın giriş hissəsində Ümummilli Lider, Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, bu orqanların inkişafında müstəsna xidmətləri olan Heydər Əliyevin barelyefi qoyulub, Ulu Öndərin arxiv sənədlərinin nümayiş olunduğu guşə və dahi şəxsiyyətin mənalı ömrünün 25 ilini həsr etdiyi təhlükəsizlik orqanlarındakı fəaliyyətini əks etdirən fotoşəkillərdən ibarət stend yaradılıb.

Prezident İlham Əliyev şəxsi heyətin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmış və müasir idman avadanlıqları ilə təchiz edilmiş mərkəzlə də yaxından tanış olub.

Sonda Prezident İlham Əliyev şəxsi heyətə xidməti fəaliyyətlərində uğurlar arzulayıb, əməkdaşların öz vəzifələrini bundan sonra da layiqincə yerinə yetirəcəklərinə inamını ifadə edib.

## İLHAM ƏLİYEV: AZƏRBAYCANIN YÜKSƏK SƏVİYYƏLİ RƏSMİLƏRİNİN ABŞ-A SƏFƏRLƏRİNƏ QOYULAN ƏSASSIZ QADAĞA ARADAN QALDIRILSIN



Noyabrın 27-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Prezident İlham Əliyev qeyd edib ki, ABŞ tərəfindən Azərbaycanla bağlı son bəyanatlar və atılan addımlar Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurub.

Dövlətimizin başçısı 2023-cü il noyabrın 15-də ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində ölkəmizlə bağlı səsləndirdiyi fikirlərin qərəzli olduğunu, həqiqəti əks etdirmədiyini və Azərbaycan tərəfindən rədd edildiyini bildirib. Azərbaycan tərəfinin ABŞ-ın Azərbaycana münasibətdə yüksək səviyyəli ikitərəfli görüş və təmasları təxirə salması və "ikitərəfli münasibətlərimizdə "əvvəlki kimi" ola bilməz" bəyanatını nəzərə aldığı, bunu adekvat cavablandırdığı vurğulanıb.

Prezident İlham Əliyev Azərbaycan Xarici İşlər Nazirliyinin noyabrın 16-da bununla əlaqədar açıqlama verdiyini, Azərbaycan tərəfinin də öz növbəsində ABŞ-dan olan yüksək səviyyəli səfərləri ləğv etdiyini xatırladıb.

Dövlət katibi Blinken münasibətlərin normallaşdırılması məqsədilə dekabrda ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş edib. Prezident İlham Əliyev həmin təkliflə bir şərtlə razılaşıb ki, bu səfərdən sonra Azərbaycanın yüksək səviyyəli rəsmilərinin ABŞ-a səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Dövlət katibi Blinken bunu qəbul edib.

Bununla yanaşı, qeyd olunub ki, sülh müqaviləsinin mətni ilə bağlı Azərbaycan tərəfinin 2023-cü il sentyabrın 11-də Ermənistana təqdim etdiyi təkliflər Ermənistan tərəfindən noyabrın 21-də cavablandırılıb. Beləliklə, Ermənistan öz cavabını 70 gün gecikdirib. Yetmiş günlük gecikdirmə bir daha nümayiş etdirir ki, Ermənistan sülh müqaviləsinin mətnindən danışıqlar prosesini uzatmaq üçün bəhanə kimi istifadə edir.

Danışıqlar zamanı tərəflər, həmçinin noyabrın 30-da Azərbaycan-Ermənistan şərti sərhədində keçiriləcək dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların növbəti görüşünə dair fikir mübadiləsi aparıblar.

## İDMANIN İNKİŞAFI ÖLKƏMİZDƏ DÖVLƏT SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİNDƏN BİRİDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Rəqəmsal inkişaf və nəqliyyat naziri, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev dövlətimizin başçısına Təlim-Məşq Mərkəzində yaradılan şəraitlə bağlı məlumat verib.

Qeyd edək ki, bu gün Azərbaycan dünyada həm də güclü idman ənənələri ilə tanınır. İdmanın inkişafı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə inşa olunan nəhəng idman kompleksləri Azərbaycanın idman potensialının nümayişi, gənclərin bu sahəyə meyilinin artması ilə nəticələnib. Bütün bunlar isə ilk növbədə, dövlətimizin başçısının idmanın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Dövlətimizin başçısı əsas binada yaradılan şəraitlə də tanış olub.

Regionlarda da cüdo üzrə infrastrukturun təkmilləşdirilməsi Azərbaycan Cüdo Federasiyasının əsas fəaliyyət istiqamətlərindən biridir. Belə ki, 2023-cü ildə Gəncə, Ağstafa, Zaqatala, Goranboy, Zəngilan rayonunun Ağalı kəndi, Sabirabad, Zirə və Sumqayıtda cüdo zalları istifadəyə verilib. Respublikamızın bir neçə şəhər və rayonlarında isə cüdo zallarının təmiri davam etdirilməkdədir.

## "BİZİM ÖLKƏLƏRİMİZDƏ SÜLH, SABİTLİK, ƏMİN-AMANLIQ HÖKM SÜRÜR, İNKİŞAF, QURUCULUQ PROSESLƏRİ UĞURLA GEDİR"




Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə deyib.

O, qeyd edib ki, iyirmi beş il ərzində ölkələrimiz arasında hərtərəfli əlaqələr uğurla inkişaf edib, ancaq SPECA-ya üzv dövlətlərin Zirvə görüşü ilk dəfə keçirilir. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan bir sıra çoxtərəfli formatlarda uğurla əməkdaşlıq edir. Mənim dəvətimlə bu gün Zirvə görüşündə Gürcüstanın və Macarıstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibi fəxri qonaqlar qismində iştirak edirlər.

Dövlət başçısı deyib: "*SPECA yarananda üzv ölkələr dövlət müstəqilliyinin ilk addımlarını atırdılar. Qarşımızda bir çox problemlər, çağırışlar durmuşdu. Son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik. Ölkələrimizi birləşdirən daha bir amil var, o da siyasi sabitlikdir. Sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb.*

*Bizim ölkələrimizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur. Dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır. Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir.*

*SPECA-ya üzv dövlətlər isə əsl müstəqil ölkələrdir, çünki müstəqil xarici və daxili siyasət aparırlar.*

*Bu günlərdə BMT Baş Assambleyasında SPECA-nın 25 illiyi ilə əlaqədar qəbul edilmiş qətnaməni alqışlayırıq. BMT-nin himayəsi altında SPECA Etimad Fondu təsis edilmişdir. Azərbaycan Etimad Fonduna 3,5 milyon ABŞ dolları ayıracaq*".

## "AZƏRBAYCANIN GÜCLÜ İQTİSADİYYATI MÜSTƏQİL XARİCİ SİYASƏT KURSU HƏYATA KEÇİRMƏYƏ İMKAN YARADIR"




"Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artmışdır".

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə deyib.

O, qeyd edib ki, Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb.

*"Biz ölkəmizdə əlverişli investisiya mühiti yarada bilmişik. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub, Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib"*, - dövlət başçısı əlavə edib.

# “Ermənistanın məqsədi işğalı qoruyub saxlamaq idi”

“2019-cu ildə Ermənistanın baş naziri o vaxt işğal altında olan Xankəndi şəhərində “Qarabağ Ermənistandır və nöqtə” açıqlaması danışıqlar prosesini tamamilə məhv etdi”.

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə deyib.

O, qeyd edib ki, 2020-ci ilin noyabr ayında Azərbaycan xalqı öz tarixinin ən parlaq Qələbəsinə imza atdı. Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistanı məğlub etdi və işğala son qoydu. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il kağız üzərində qalmış dörd qətnaməsinin icrasını özümüz təmin etdik.




Dövlət başçısı deyib: *“Təəssüf ki, Ermənistan bundan sonra da öz öhdəliklərini yerinə yetirmədi. Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin 15 minə yaxın hərbi kontingenti qalmaqda idi. Onlar tərəfindən törədilmiş hərbi təxribatlar nəticəsində hərbçilərimiz həlak olmuşlar.*

*Buna cavab olaraq və “boz zona”ya son qoyulması məqsədilə bu il sentyabrın 19-20-də biz Qarabağda antiterror tədbirləri keçirdik. Cəmi bir gün ərzində 1992-ci ildə xalqımıza qarşı soyqırımının törədildiyi Xocalı şəhəri də daxil olmaqla, bütün ərazilərimiz üzərində suverenliyimizi tam bərpa etdik və Azərbaycan ərazisində təcavüzkar separatizmə son qoyduq.*

*Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik.*

*İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər “Böyük Qayıdış” Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq”.*

* * * *

Zirvə görüşündə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Macarıstanın Baş naziri Viktor Orban, Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Xocamurad Geldimuradov, BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçan, BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi xanım Armida Salsiya Alişahbana, Körfəz Əməkdaşlıq Şurasının Baş katibi Casim Məhəmməd əl-Budeyvi çıxış ediblər.

SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşünün yekunu olaraq Bakı Bəyannaməsi və Orta Dəhlizin rəqəmsallaşdırılması ilə bağlı Yol Xəritəsi qəbul edilib.

# KOB subyektlərinin 380 min manatlıq layihələri maliyyələşdiriləcək

Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi üçün elan edilmiş dördüncü qrant müsabiqəsinin nəticələri açıqlanıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) AZƏRTAC-a bildirilib ki, KOBİA tərəfindən keçirilmiş müsabiqəyə təqdim edilmiş 382 layihədən 19-nun maliyyələşdirilməsi barədə qərar qəbul olunub. Qalib layihələrin hər birinə maksimum 20 min manata qədər maliyyə vəsaiti ayrılacaq.




Layihələrin ekspertizası məqsədilə yaradılmış Ekspert Komissiyasının noyabrın 29-da keçirilmiş iclasında qeyd edilib ki, müsabiqəyə 369-u KOB subyekti və 13-ü qeyri-sahibkarlıq subyekti olmaqla ümumilikdə 382 layihə təqdim edilib. KOB subyektlərinə məxsus layihələrin 163-ü hüquqi, 206-sı fiziki şəxslərə, o cümlədən 357-si mikro, 12-si kiçik sahibkarlıq subyektlərinə məxsusdur. Müsabiqəyə təqdim olunmuş layihələrdən 178-si təhsil, 23-ü elm, 51-i tədqiqat, 130-u dəstək layihələridir.

Qeyd edək ki, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi üçün elan edilmiş 4-cü qrant müsabiqəsinə sənəd qəbulu 14 avqust-13 sentyabr 2023-cü il tarixlərində, layihələrin ekspertizası və qiymətləndirilməsi isə 15 sentyabr-14 noyabr 2023-cü il tarixlərində həyata keçirilib.

Ekspert Komissiyası tərəfindən layihələrin qiymətləndirilməsi zamanı Nazirlər Kabinetinin 30 sentyabr 2020-ci il tarixli Qərarı ilə təsdiq olunmuş meyarlara uyğun olaraq, onun mikro, kiçik və orta sahibkarlığın inkişafına təsiri, innovativliyi, əsaslandırılmış ideyasının olması, praktiki məqsədlər üçün tətbiq imkanları, layihənin icrası üçün lazımi təcrübənin və maddi-texniki bazanın mövcudluğu və digər bu kimi amillər əsas götürülüb. Qalib layihələr barədə ətraflı məlumatı KOBİA-nın saytından əldə etmək olar.

# Xankəndidə Qarabağ Universiteti yaradılır

*Prezident İlham Əliyev “Qarabağ Universitetinin yaradılması haqqında” Sərəncam imzalayıb.*



Sərəncama əsasən, Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində “Qarabağ Universiteti” publik hüquqi şəxs yaradılır.

Nazirlər Kabinetinə iki ay müddətində Qarabağ Universitetinin nizamnaməsini təsdiq etmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək tapşırılıb. Nazirlər Kabineti, həmçinin universitetin fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görəcək, universitetin Xankəndi şəhərində torpaq sahəsi, tədris və yataqxana binaları, idman meydançası və digər infrastruktur obyektləri ilə təminatı məsələlərini həll edəcək. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na uyğun olaraq, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, dayanıqlı inkişafı və həmin ərazilərdə yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

Əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılmasında nəzərdə tutulan müasir yanaşmalar, o cümlədən qabaqcıl standartların, yüksək texnologiyaların tətbiqi və hər bir rayonun ixtisaslaşma sahəsinə müvafiq inkişafı yüksəkixtisaslı kadrların cəlb edilməsini şərtləndirir.

Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olub. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırıb.

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarıb.

# Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı keçirilib

Noyabrın 29-da AMEA-nın Rəyasət Heyətinin binasında Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı keçirilib. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdir müavini Nigar Hacıyeva, Elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev, Milli Məclisin deputatları: akademik Ziyad Səmədzadə, akademik Əhliman Əmiraslanov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü Bəxtiyar Əliyev, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun başqanı, professor Dərya Örs, AMEA-nın Rəyasət Heyətinin üzvləri, Akademiyanın həqiqi və müxbir üzvləri, AMEA-nın elmi müəssisə və təşkilatlarının direktorları, ali təhsil müəssisələrinin rektorları və KİV əməkdaşları iştirak ediblər.



İclası AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq Ümumi yığıncağın gündəliyindəki məsələləri diqqətə çatdırıb. Ümumi yığıncaqda akademik İsa Həbibbəylinin ***“AMEA-da yeniləşmə prosesləri: struktur islahatlarından elmi-tədqiqatların yenidən təşkilinə, elektron hərəkata və beynəlxalq elmi qurumlarda təmsil olunmağadək”*** mövzusunda giriş məruzəsi dinlənilib.

# Dövlət Statistika Komitəsində “Ticarət statistikası sahəsində mövcud vəziyyət və qarşıda duran vəzifələr” mövzusunda onlayn tədbir keçirilib

28 noyabr tarixində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində video-konfrans formatında “Ticarət statistikası sahəsində mövcud vəziyyət və qarşıda duran vəzifələr” mövzusunda görüş keçirilib. Tədbirdə İqtisadiyyat, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Gömrük Komitəsinin, Mərkəzi Bankın, Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun, İqtisadiyyat Nazirliyi yanında Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin, “İqtisadiyyat” qəzeti redaksiyasının və bəzi yerli statistika orqanlarının nümayəndələri iştirak ediblər.




Tədbirdə ticarət statistikasının göstəricilər sisteminin milli və beynəlxalq səviyyədə statistik məlumatlara olan tələblər əsasında qurulması, tətbiq edilən metodologiyaların, təsnifatların BMT-nin Statistika şöbəsinin tövsiyələrinə uyğun olaraq təkmilləşdirilməsi, bu sahədə görülmüş işlər haqqında geniş məlumat verilib. Bildirilib ki, statistik məlumatların istehsalı, təhlili və yayımı Azərbaycan Respublikasının normativ-hüquqi aktlarına, rəsmi statistikanın təkmilləşdirilməsinə dair dövlət proqramlarına və statistik işlər proqramına uyğun olaraq həyata keçirilir.

Həmçinin, 2023-cü ildə iş planları üzrə şöbə tərəfindən yerinə yetirilmiş işlər və qarşıda duran vəzifələr haqqında tədbir iştirakçılarına məlumat verilmiş, görüş iştirakçılarının bu sahədə sualları cavablandırılmışdır.

Görüşdə istifadəçilərin statistik məlumatlara olan tələblərinin öyrənilməsi məqsədi ilə müzakirələr aparılmış, Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində yerləşdirilmiş məlumatlar, ticarət statistikasına dair məcmuə və bülletenlərin onlayn versiyaları barədə məlumat verilmişdir.

# Bakıda Orta Dəhliz üzrə tarif siyasəti müzakirə olundu

Orta Dəhlizin perspektiv imkanları, onun fəaliyyətinin genişləndirilməsi, o cümlədən 2024-cü il üzrə tarif siyasətinin formalaşdırılması ilə bağlı məsələlər Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üzrə İşçi qrupunun Bakıda keçirilən iclasında müzakirə olunub.

“Azərbaycan Dəmir Yolları”ndan Trend-ə bildirilib ki, Azərbaycan, Gürcüstan və Qazaxıstanın dəmir yolları, liman şirkətləri və digər tərəfdaşların birgə qatıldığı görüşdə Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin həyat qabiliyyətini, səmərəliliyini və dayanıqlı inkişafını daha da təkmilləşdirmək baxımından qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi geniş müzakirə olunub.

Görüşdə “Azərbaycan Dəmir Yolları” QSC tərəfindən “Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyası”nın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bir sıra təkliflər səsləndirilib. Belə ki, əməkdaşlığın yeni formatının müəyyən edilməsi, tarif siyasətinin bazar tələbatına uyğun formalaşdırılması, alternativ marşrutlarla müqayisədə Orta Dəhliz üzrə qiymət və daşıma şərtlərinin optimallaşdırılması, dəhlizin beynəlxalq müstəvidə marketinq fəaliyyətinin düzgün formalaşdırılması və s. istiqamətlərdə atılması zəruri olan addımlar nəzərdən keçirilib.

# “Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı” mövzusunda beynəlxalq konfrans keçirilib





**27 noyabr 2023-cü il tarixində Bakı Biznes Mərkəzində İqtisadi Elmi Tədqiqat İnstitutu (ESRI) tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş “Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı” mövzusunda beynəlxalq konfrans keçirilib.**

Konfransın açılış mərasimində ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda açılış nitqi ilə çıxış etmiş iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov Azərbaycanın dünya dövlətləri arasında layiqli mövqe tutmasında ümummilli lider Heydər Əliyevin əzmi, zəhmətkeşliyi və yüksək zəkasının mühüm rol oynadığını vurğulayıb. Cənab Ələkbərov qeyd edib ki, Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə iqtisadi zəmində böyük dəyişikliklərin təməlləri qoyulub.

ESRI tərəfindən həyata keçirilmiş “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” adlı ümumrespublika və beynəlxalq elmi və praktiki məqalə müsabiqəsindən də bəhs etmiş S.Ələkbərov sözügedən müsabiqənin Heydər Əliyev iqtisadi irsinin ölkə hüdudlarından kənarda öyrənilməsi baxımından müstəsna əhəmiyyət kəsb etdiyini qeyd edib.

Konfransda xüsusi qonaq qismində “Heydər Əliyev – canlı xatirələr və iqtisadi strategiya” adlı paneldə çıxış etmiş siyasi və dövlət xadimi Həsən Həsənov, Milli Məclisin deputatı Ziyad Səmədzadə, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov, Heydər Əliyev dövründə təhsil naziri olmuş Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru Misir Mərdanov və “BP”nin Xəzər bölgəsində xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli dahi şəxsiyyət Heydər Əliyev barədə öz təəssüratlarını bölüşüb və Azərbaycanın onun tərəfindən əsası qoyulmuş uğurlu iqtisadi strategiyasına toxunublar.

Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə çıxışında deyib: 1969-cu ildə Azərbaycanın rəhbəri seçilən Heydər Əliyev ilk növbədə, iqtisadiyyatda yaranmış ağır vəziyyətin, onu doğuran səbəblərin sistemli təhlilini apardı, iqtisadiyyatın sürətli inkişafına xidmət edəcək məqsəd və vəzifələr dəqiqləşdirdi. Heydər Əliyev ölkədə yeni iqtisadi sistemin yaradılması prosesini təhlil edərək deyirdi: “İqtisadiyyat ağır yollardan keçərək irəliləyir. Bəzilərinə, yəni bu işi bilməyən adamlara, yaxud da ki, nə bilim, hansısa şəxsi məqsəd güdən adamlara, ya Azərbaycanı dağıtmaq istəyən adamlara elə gəlirdi ki, hər şeyi dağıtmaq lazımdır, hər şeyi tezliklə özəlləşdirmək lazımdır, ondan sonra Azərbaycanın iqtisadiyyatı inkişaf edə bilər. Onlar naşı adamlardırlar. Nəinki naşı adamlardırlar, ağılsız adamlardır.

O, bildirirdi: ***“Respublikanın yeni bazar münasibətlərinə əsaslanan iqtisadi mexanizmlərdən istifadə etmək təcrübəsi azdır. Ona görə də müəyyən edilmiş qaydaları şəraitdən asılı olaraq dəyişməyə ehtiyac yaranır. O deyirdi: “Çeviklik göstərmək lazımdır ki, hansısa qərar üç il bundan qabaq qəbul olunubsa və əgər indi şərait dəyişilibsə, bəlkə müəyyən dəyişikliklər etmək lazımdır. Yəni gərək biz daim bazara nəzarət edək.***

***Ulu öndər Heydər Əliyev çıxışlarının birində deyir: Daha bir vacib məsələ barədə danışmaq istərdim. 1995-1996-cı illərdə özəlləşdirmə proqramını həyata keçirməyə başlayanda bəziləri deyirdilər ki, gəlin hər şeyi bir ildə özəlləşdirək, nə varsa hamısını dağıdaq, şəxsi mülkiyyətə verək, onda hər şey yaxşı olacaqdır. Mən isə bunlara yol vermədim. O vaxt bəzi adamlar bu cür müəssisələri, bizim neft sənayesini özəlləşdirmək istəyirdilər. Onlar Azərbaycan xalqının ən böyük sərvətini, bu gün də bundan sonra da xalqımıza xidmət göstərəcək və onun sosial inkişafını təmin edəcək neft sənayesini, neft şirkətini özəlləşdirmək istəyirdilər. Başa düşürsünüz? Mən o vaxt bunların qarşısını aldım.***

***Mən bunu nə üçün deyirəm. Bu cəhdlərin məqsədi o idi ki, demək, bir adam, bir neçə adam murdar fikirlərlə bu zavodu əlinə keçirsin, sonra nə cür istəyirsə istifadə etsin. Mən bu barədə o vaxt da mövqeyimi bildirmişəm və bu gün də deyirəm. Hamı bilsin. Çünki bəzi yerlərdə müxtəlif fikirlər gəzir. Neft sənayesi Azərbaycanda özəlləşdirilə bilməz. Neft sənayesi, neft emalı sənayesi dövlətin əlində olmalıdır. “Əgər biz respublikamızın bazar iqtisadiyyatına doğru inkişafını tam təmin edə bilsək, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin səviyyəsinə qaldıra bilsək – buna hələ çox var – hesab edirəm, gələcək nəsillərə imkan vermək olar ki, bu sahədə də özəlləşdirmə aparsın. Amma indiki dövrdə bunların heç birini şəxsi ələ vermək olmaz. Onu bilin, heç kəsə vermək olmaz”.***

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin dağılmasının qarşısının alınması, respublikamızın geriliyinin aradan qaldırılması, neft-qaz kontraktlarının bağlanması, ölkənin dinamik inkişafının təmin edilməsi, qloballaşan dünyada Azərbaycanın özünə layiqli yer tutması və s. fundamental problemlərin uğurla həll edilməsinə nail oldu. Azərbaycanı, onun xalqını dünyaya tanıtdı.

Hamımız qürur hissi keçiririk ki, müstəqil dövlətimizin gələcəklə bağlı Heydər Əliyev tərəfindən müəyyən edilmiş və bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən strategiyası vardır.

Tam əminliklə demək olar ki, illər, əsrlər keçəcək, Heydər Əliyevin Azərbaycanın dünəni, bu günü, gələcəyi barədə əbədiyaşar ideyaları müstəqil dövlətimizin daha keyfiyyətl inkişafını, xalqımızın işıqlı gələcəyini təmin edəcəkdir.

Tədbirdə ESRI-nin İdarə Heyətinin sədri Mahir Hümbətov qonaqlara ESRI tərəfindən təsis edilmiş yeni beynəlxalq jurnal – “Strateji iqtisadi düşüncə” jurnalı (JSET) barədə məlumat verib. O qeyd edib ki, bu jurnalın ilk sayında “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!” adlı ümumrespublika və beynəlxalq elmi və praktiki məqalə müsabiqəsinə təqdim edilmiş məqalələr arasından xüsusi seçilmiş materiallar yer alıb.

Daha sonra “Heydər Əliyev İli” çərçivəsində ESRI tərəfindən həyata keçirilmiş elmi və praktiki məqalə müsabiqəsinin qalibləri Məhəmməd Səmədov (Azərbaycan), Oleq Leşenyuk (Belarus), Haila Əlmekaimi (Küveyt), Ruslan Şevçenko (Moldova), Xalid Taimur Akram (Pakistan), Muhammad Zaman (Pakistan), Mehmood Ul Hassan Xan (Pakistan) və Doğacan Başarana (Türkiyə) da çıxış etmək üçün söz verilib.

Sonda müsabiqə qalibləri təltif edilib və xatirə şəkli çəkdirilib.

## Türkmənistan və Azərbaycan ikitərəfli əməkdaşlığın dərinləşdirilməsini müzakirə edib




Aşqabadda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO və Türkmənistanın Ticarət və Sənaye Palatasının birgə təşkilatçılığı ilə Türkmənistan-Azərbaycan biznes-forumu keçirilib.

Nazirlikdən bildirilib ki, tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, sənaye, tikinti, logistika, qida sənayesi, kənd təsərrüfatı, kimya, maliyyə və digər sahələrdə fəaliyyət göstərən 60-a yaxın şirkət nümayəndəsi iştirak edib.

Biznes-forumda iqtisadiyyat naziri Mikayıl Cabbarov Türkmənistan və Azərbaycan arasında iqtisadi-ticarət münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. Bildirilib ki, investisiyaların təşviqi və qarşılıqlı qorunması, ikiqat vergitutmanın aradan qaldırılması, dövlət əmlakının idarə edilməsi, kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlığa dair mövcud sazişlər davamlı və səmərəli iqtisadi tərəfdaşlıq üçün möhkəm zəmin formalaşdırıb. Türkmənistanla ticarət əlaqələrinin təşviqi müsbət nəticələr verir. Dost ölkə ilə investisiya əməkdaşlığı da genişlənir. Qarşılıqlı sərmayə qoyuluşu üçün münbit şərait var. Ticarət və investisiya sektorlarında dayanıqlı müsbət dinamikanın təmin olunması üçün ölkələrimizin işgüzar dairələri qarşılıqlı investisiya layihələrində fəal olmalıdırlar. Perspektivli sahələrdən olan enerji, sənaye, nəqliyyat-logistika, kənd təsərrüfatı, rəqəmsal transformasiya, Ələt Azad İqtisadi Zonası, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və digər istiqamətlər üzrə tərəfdaşlıq önəmlidir. Forumda Azərbaycanın əlverişli biznes və investisiya mühiti, sənaye zonalarının, azad edilmiş ərazilərimizdə iqtisadi reinteqrasiyanın investorlar üçün yaratdığı imkanlar barədə məlumat verilib, Türkmənistan sərmayədarları ölkəmizin biznes fürsətlərindən fəal şəkildə yararlanmağa dəvət olunub.

Biznes-forumda hər iki ölkənin investisiya iqlimi və biznes imkanlarına dair təqdimatlar keçirilib. Tədbir iş adamları arasında B2B formatında görüşlərlə davam etdirilib.

## SOCAR Özbəkistanda kimyəvi maddələrin və qazma mayelərinin istehsalını həyata keçirəcək



Dövlət Neft Şirkəti (SOCAR) Özbəkistanda kimyəvi maddələrin və qazma mayelərinin istehsalını həyata keçirməyi planlaşdırır.

Özbəkistan Prezidenti 24 yanvar 2022-ci il tarixli PP-99 saylı "Respublikada istehsalın inkişafı və sənaye kooperasiyasının genişləndirilməsi üçün səmərəli sistemin yaradılması tədbirləri haqqında" qərar qəbul edib. Bu sənəddə ölkədə yüksək texnoloji istehsalın inkişafı üçün kompleks sistemin yaradılması və investisiyaların aktiv cəlb edilməsinə, tələb olunan məhsulların geniş spektrinin inkişafına və ixrac potensialının artırılmasına hərtərəfli dəstək verilməsi ilə bağlı vəzifələr müəyyən edilib. Sözügedən sənəddə göstərilən tapşırıqların icrasını təmin etmək məqsədilə, “Uzbekneftegaz” SC Dövlət Neft Şirkəti (SOCAR) ilə birlikdə Kaşkadərya vilayətində kimyəvi reagentlərin və neft-qaz avadanlıqlarının istehsalının mənimsənilməsi layihəsini həyata keçirir.

Layihə çərçivəsində Özbəkistanda, ölkəyə hal-hazırda idxal hesabına təmin olunan kimyəvi maddələrin və qazma mayelərinin istehsalının təşkil olunması planlaşdırılır. Bundan əlavə, quyuların əsaslı təmiri üçün avadanlıqların işlənib hazırlanması və yataqların işlənməsi və qazma işlərində geniş istifadə olunan qazma və tamponlama məhlulları üçün komponentlərin anbarlarda saxlanması və paylanması xidmətləri də nəzərdən keçiriləcək.

## İqtisadiyyat naziri “Agro-Pack Turkmenistan 2023” beynəlxalq sərgisində iştirak edib

İqtisadiyyat naziri Mikayıl Cabbarov Türkmənistana işgüzar səfəri çərçivəsində “Agro-Pack Turkmenistan 2023” beynəlxalq sərgisində iştirak edib.

Bu barədə nazir məlumat verib.

“Türkmənistana işgüzar səfərimiz çərçivəsində bu ölkənin Nazirlər Kabinetinin sədr müavini, Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyasının həmsədri Batır Atdayev ilə birlikdə “Agro-Pack Turkmenistan 2023” beynəlxalq sərgisində iştirak etdik. İnnovativ istehsal mexanizmlərinin təqdim edildiyi sərgidə sənaye, kənd təsərrüfatı, qida, İKT, inşaat, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən beynəlxalq şirkətlərin təqdim etdiyi xidmətləri, iqtisadi səmərəliliyin artırılması, resurslardan effektiv istifadə və iqtisadiyyatın müxtəlif sahələri üçün müasir həlləri təmin edən yeniliklərlə tanış olduq”, - deyə nazir qeyd edib.

# Блинкен согласился на требование Алиева





Госсекретарь США Энтони Блинкен 27 ноября позвонил президенту Азербайджана Ильхаму Алиеву, сообщает пресс-служба главы государства.
В ходе телефонного разговора Алиев отметил, что последние заявления и шаги, предпринятые США в отношении Азербайджана, нанесли серьезный ущерб азербайджано-американским отношениям.
Глава государства заявил, что высказывания помощника госсекретаря США Джеймса О'Брайена об Азербайджане на слушаниях подкомитета по Европе Комитета по иностранным делам Палаты представителей 15 ноября 2023 года являются предвзятыми, не отражают истины и отвергаются Азербайджаном.
Было подчеркнуто, что азербайджанская сторона приняла во внимание заявление США об отсрочке двусторонних встреч и контактов на высоком уровне в отношении Азербайджана, а также заявление о том, что «двусторонние связи между Баку и Вашингтоном не могут быть такими, как прежде», и адекватно отреагировала на это.
Алиев напомнил, что 16 ноября Министерство иностранных дел Азербайджана сделало заявление по этому поводу, и азербайджанская сторона отменила визиты высокого уровня из США.
В целях нормализации отношений госсекретарь Блинкен попросил разрешения на визит помощника госсекретаря США Джеймса О'Брайена в Азербайджан в декабре.
Алиев согласился с предложением при условии, что после этого визита будет снят необоснованный запрет на поездки высокопоставленных официальных лиц Азербайджана в США. Госсекретарь Блинкен ответил согласием.
Вместе с тем Алиевым было отмечено, что предложения, которые азербайджанская сторона представила Армении 11 сентября 2023 года в связи с текстом мирного договора, были получены Армением 21 ноября.
Таким образом, подчеркнул президент, Армения отложила свой ответ на 70 дней. Семидесятидневная задержка еще раз демонстрирует, что Армения использует текст мирного договора как предлог для продления переговорного процесса.

# Милли Меджлис ответил Симоняну



Спикер парламента Армении Ален Симонян в заявлении журналистам от 28 ноября в очередной раз исказил существующие в регионе реалии и высказал далекие от истины мнения.
Об этом говорится в заявлении Милли Меджлиса Азербайджана относительно сегодняшних высказываний спикера парламента Армении Алена Симоняна.
В заявлении подчеркивается, что Симонян пытается «выслужиться перед своими покровителями», игнорируя исторический контекст 30-летней оккупации территорий Азербайджана Арменией.
«Иного объяснения последним высказываниям дать невозможно. Это желание стереть из памяти факт 30-летней оккупации Арменией международно признанных территорий Азербайджана и снять это черное пятно армянской истории с повестки дня международной общественности Симонян пытается завуалировать под видом взгляда в будущее», — говорится в заявлении.
Также отмечается, что Симоняну стоит признать ответственность Армении за вынужденное перемещение более миллиона азербайджанцев в результате политики этнической чистки, Ходжалинский геноцид и разрушение городов и сел во время оккупации, но, по мнению Милли Меджлиса, это маловероятно.

# Аналитики предрекают спад инфляции в Азербайджане



Компания Fitch Solutions (FS), принадлежащая Fitch Group, обнародовала свой прогноз по экономике Азербайджана на 2024 год. FS прогнозирует, что в 2024 году экономический рост в Азербайджане составит 3,1%, номинальный ВВП достигнет 168,6 млрд манатов, а ВВП на душу населения – 16 115 манатов.
«Наша команда по нефтегазовой отрасли прогнозирует, что среднегодовые цены на нефть вырастут с 80 долларов США за баррель в 2023 году до 83 долларов США за баррель в 2024 году.
Более высокие цены на нефть и объемы нефтедобычи в следующем году ускорят экономический рост. Согласно нашим ожиданиям, в 2024 году среднегодовая инфляция составит 7,5%, а к концу 2024 года снизится до 6,2%. В то же время, по нашим прогнозам, Центробанк Азербайджана снизит учетную ставку к концу 2024 года до 8,25%», - говорится в прогнозе.

# Товарооборот между Азербайджаном и Туркменистаном вырос на более чем 88%

В январе - октябре 2023 года товарооборот между Азербайджаном и Туркменистаном вырос на 88,31 процента по сравнению с аналогичным периодом прошлого года. Об этом написал в соцсети X министр экономики Азербайджана Микаил Джаббаров.
«Усилия по укреплению азербайджано-туркменских торговых отношений дают многообещающие результаты. В январе-октябре 2023 года, по сравнению с аналогичным периодом прошлого года, товарооборот между нашими странами вырос более чем на 88%, что означает почти десятикратный рост за последние два года. В ходе Туркмено-азербайджанского бизнес-форума мы призвали бизнес обеих стран сохранить эту положительную тенденцию, оценить взаимные инвестиционные проекты и активно включиться в сотрудничество», - говорится в публикации.
Напомним, что по данным Государственного таможенного комитета Азербайджана, товарооборот страны с Туркменистаном в январе-октябре 2023 года составил 710,388 миллиона долларов США, а в аналогичный период прошлого года - 377,243 миллиона долларов. Отметим, что по итогам 2022 года товарооборот составил 535,397 миллиона долларов США.

# С начала эксплуатации с платформы «Чираг» добыто около 24 млрд.кубометров газа

На платформе «Чираг», расположенной на блоке месторождений Азери–Чираг–Глубоководный Гюнешли (АЧГ) в азербайджанском секторе Каспийского моря, с начала эксплуатации добыто более 104 млн тонн нефти и почти 24 млрд кубометров газа.
Как сообщили в Министерстве энергетики, среднесуточный объем добычи с платформы в первом полугодии 2023 года составил 23 тыс. баррелей.
Первая нефть с блока АЧГ была получена на месторождении Чираг в ноябре 1997 года. Азери–Чираг–Глубоководный Гюнешли считается крупнейшим блоком нефтегазовых месторождений в азербайджанском секторе Каспийского моря и расположен примерно в 100 километрах к востоку от Баку. В 1994 году, когда был подписан «Контракт века», запасы блока месторождений оценивались в 511 млн тонн нефти. Позже этот прогноз был повышен до 1072 млрд тонн.

# Европейский суд по правам человека разоблачил истинные намерения Армении



Об этом в своей публикации в социальной сети «X» заявил заместитель министра иностранных дел Азербайджана Эльнур Мамедов.
«Европейский суд по правам человека в своем последнем решении от 17 октября 2023 года («Дело Ованнисяна и Карапетяна против Армении») отметил, что граждане Республики Армения Р.Ованнисян и А.Саркисян были призваны в армию Армении в 2009 и 2008 годах и направлены в воинскую часть № 36534 «Вооруженных сил Нагорного Карабаха».
В июле 2010 года они оба были убиты своими сослуживцами в результате внутреннего инцидента. Родители убитых военных подали в суд на Армению с требованием компенсации.
Суд далее отметил, что «он уже рассматривал в других делах вопрос о юрисдикции Армении над указанной территорией и установил, что Армения осуществляла эффективный контроль над «Нагорным Карабахом» и прилегающими территориями, и следовательно, вышеуказанные события произошли в пределах юрисдикции Армении», - написал дипломат.
По словам Э.Мамедова, Армения настаивает на своей позиции о том, что она не имела никакого контроля и юрисдикции над оккупированными тогда территориями Азербайджана, чтобы отрицать свою ответственность за любые незаконные действия, совершенные там. «Говоря дипломатическим языком, ЕСПЧ пришел к выводу, что Армения не была честной», - подчеркнул замминистра.

# Лиссабон избран Европейской столицей инноваций 2023 года

Лиссабон в рамках премии The European Capital of Innovation избран Европейской столицей инноваций 2023 года. Эта награда присуждается Европейской комиссией.
По словам мэра Лиссабона Карлоса Моэдаса, эта награда является признанием работы, проделанной в сфере Unicorn (единорогов).
«Мы – инновационная столица Европы! Европейская комиссия только что объявила крупнейшую награду за инновации в мире. Это Лиссабон! Мы выиграли эту награду благодаря Fábrica de Unicórnios (фабрике единорогов), благодаря невероятной работе, которую мы проделали за эти два года. И теперь нас наградят премией в один миллион евро», - заявил Карлос Моэдас в видеообращении, опубликованном в социальной сети X (ранее Twitter), после церемонии объявления города Европейской столицей инноваций. По данным мэрии города, Лиссабон за 2021–2022 годы привлек более 54 технологических компаний и 12 компаний-единорогов с общей прибылью в 1 миллиард долларов без присутствия на бирже.
По словам Карлоса Моэдаса, премия в один миллион евро будет направлена на социальные инновации с целью улучшения жизни людей. В рамках премии The European Capital of Innovation Варшава заняла второе место, Львов (Украина) – третье место.
Премия The European Capital of Innovation была учреждена в 2014 году и проводится ежегодно Европейским советом инноваций. Ее цель — наградить города, успешно внедряющие инновации на местном уровне и служащие примером для других.

# Израиль готов к продлению паузы в секторе Газа

Нетаньяху заявил, что Израиль положительно оценивает возможность продления паузы в Газе для освобождения дополнительных 10 заложников в день.
Ранее сообщалось, что ХАМАС готов продлить сделку по обмену пленными с Израилем на два - четыре дня. "ХАМАС стремится продлить перемирие после окончания его четырехдневного срока и прилагает к этому усилия путем увеличения числа заложников, которые подлежат освобождению, согласно соглашению о гуманитарном перемирии", - заявили в ХАМАС.

# Azərbaycan ixrac həcmini və məhsulların əlavə dəyərini artıra bilər




Qazaxıstan, Azərbaycan və Gürcüstan orta dəhliz ticarət marşrutunun diversifikasiyasında mühüm rol oynayır. Təchizat zəncirlərinin yönləndirilməsində, ölkələrarası ticarətin dayanıqlığının artırılmasında və Rusiya Çin kimi ənənəvi regional ticarət tərəfdaşlarından asılılığın azaldılmasında orta dəhlizin mühüm rolu olacaq. Bu barədə Dünya Bankının (DB) hesabatında bildirilib.
Qeyd olunub ki, bu istiqamətdə formalaşan xüsusi siyasət nəticəsində Qazaxıstan, Azərbaycan və Gürcüstan istehsal fəaliyyətlərinin kütləviliyini təşviq etməklə ixrac həcmini və məhsulların əlavə dəyərini artıra bilər. "2021-2030-cu illər üçün üç ölkənin yük bazasında ümumi potensial 90 milyon ton (+44 faiz) təşkil edəcək. Bunun 70 milyon tonu Qazaxıstandan əlavə ixracın payına düşəcək", - deyə vurğulanıb.

# Sahibkarlıq subyektlərinin vahid reyestrinin yaradılmasına başlanılıb

İqtisadiyyat Nazirliyinə məxsus "Tikinti-Təchizat Birliyi" MMC "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri"nin yaradılmasına başlayıb.
Reyestr yaradıldıqdan sonra Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya ediləcək. Reyestrin yaradılması Milli Məclisin ötən il dekabrın 2-də qəbul etdiyi və Prezident İlham Əliyevin bu il yanvarın 26-da təsdiq etdiyi "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanunda öz əksini tapıb.



# Bankların kreditlərdən gəliri açıqlanıb

Azərbaycanda fəaliyyət göstərən banklar 2023-cü ilin 10 ayı ərzində (yanvar-oktyabr) müştərilərə verilmiş kreditlər üzrə 2 milyard 101 milyon 782 min manat faiz gəliri əldə ediblər.
Mərkəzi Bankdan bildirilib ki, ötən ilin eyni dövrü ilə müqayisədə bankların kreditlər üzrə faiz gəlirləri 306,2 milyon manat və ya 17% artıb. 2022-ci ilin 10 ayı ərzində bankların kreditlər üzrə faiz gəlirləri 1 milyard 795 milyon 637 min manat təşkil etmişdi.
2023-cü ilin 10 ayı ərzində bankların cəmi faiz gəlirləri 2 milyard 861 milyon 939 min manat, qeyri-faiz gəlirləri 1 milyard 86 milyon 805 min manat təşkil edib. 2022-ci ilin 10 ayı ərzində bankların cəmi faiz gəlirləri 2 milyard 211 milyon 500 min manat, qeyri-faiz gəlirləri 971 milyon 182 min manat təşkil etmişdi.
Azərbaycanda fəaliyyət göstərən banklar 2023-cü ilin 10 ayını 908 milyon 202 min manat xalis mənfəət ilə başa vurublar. Banklar ötən ilin 10 ayında 769 milyon 875 min manat, tam 2022-ci ildə isə 914 milyon 473 min manat xalis mənfəət əldə etmişdilər.

# Azərbaycanın spirtli və spirtsiz içkilər ixracı artıb

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycan 51,3 milyon ABŞ dolları dəyərində spirtli və spirtsiz içkilər, sirkə ixrac edib.
Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2,9 dəfə çoxdur.
10 ay ərzində Azərbaycanın içki və sirkə idxalının dəyəri isə 78,5 milyon ABŞ dolları olub ki, bu da 1 il əvvələ nisbətən 12,3% çoxdur.
Hesabat dövründə içki və sirkə üzrə ixrac Azərbaycanın ümumi ixracının 0,2%-ni, idxal isə ümumi idxalın 0,55%-ni təşkil edib.




# "Çinar Park" QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| İLKİN MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT | Qeydlər | 31 dekabr 2022-ci il | 01 yanvar 2022-ci il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Bina, tikili və avadanlıqlar | 14 | 14,706,534 | 11,246,454 |
| Qeyri-maddi aktivlər | 14 | 1,436 | 3,869 |
| Uzunmüddətli aktivlər üzrə avans ödənişləri | 15 | 2,730,560 | - |
| Təxirə salınmış vergi aktivi | 13 | 26,865 | 27,446 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **17,465,395** | **11,277,769** |
| **Cari aktivlər** | | | |
| Mal-material ehtiyatları | 18 | 35,251 | 120,760 |
| Ticarət debitor borclar | 17 | 940,918 | 249,317 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 16 | 1,044,829 | 781,202 |
| Digər aktivlər | 19 | 242,376 | 236,469 |
| **Cəmi cari aktivlər** | | **2,263,374** | **1,387,748** |
| **Cəmi aktivlər** | | **19,728,769** | **12,665,517** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 22 | 115,388 | 115,388 |
| Yenidən qiymətləndirmə ehtiyatı | | 8,237,704 | 8,237,704 |
| Bölüşdürülməmiş mənfəət | | 5,681,568 | 2,933,652 |
| **Cəmi kapital** | | **14,034,660** | **11,286,744** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Səhmdardan alınan borc vəsaitləri | 9 | 5,161,161 | 942,000 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **5,161,161** | **942,000** |
| **Cari öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borcları | 20 | 323,797 | 188,705 |
| Cari mənfəət vergisi öhdəliyi | | 103,174 | 61,357 |
| Digər vergi öhdəlikləri | | - | 72,574 |
| Digər öhdəliklər | 21 | 105,977 | 114,137 |
| **Cəmi cari öhdəliklər** | | **532,948** | **436,773** |
| **Cəmi öhdəliklər** | | **5,694,109** | **1,378,773** |
| **Cəmi öhdəliklər və kapital** | | **19,728,769** | **12,665,517** |

| İLKIN MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DIGƏR MƏCMU GƏLIRLƏR HAQQINDA HESABAT | Qeydlər | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| **Gəlirlər** | 10 | **6,090,714** |
| Əmək haqqı və əlaqəli xərclər | | (816,739) |
| Kommunal xərclər | | (512,953) |
| Mühafizə xərcləri | | (356,111) |
| Təmir və saxlanma xərcləri | | (226,883) |
| Köhnəlmə və amortizasiya xərcləri | | (214,302) |
| Sosial sığorta xərcləri | | (136,360) |
| Konsultasiya və digər peşəkar xidmət xərcləri | | (125,831) |
| Material xərci | | (104,214) |
| İcarə xərcləri | | (103,200) |
| Sığorta xərcləri | | (65,162) |
| İşçilərə verilən yemək xərcləri | | (51,658) |
| Marketinq və reklam xərcləri | | (22,087) |
| Mənfəət vergisindən başqa digər vergi xərcləri | | (18,728) |
| Bank komissiya xərcləri | | (11,431) |
| Ofis ləvazimətları | | (8,689) |
| Digər əməliyyat xərcləri | | (21,776) |
| Digər əməliyyat gəlirləri | 11 | 205,591 |
| **Cəmi dəyər və xərclər** | | **3,500,181** |
| Maliyyə aktivləri üzrə GKZ xərci | | (32,707) |
| **Vergidən əvvəlki mənfəət** | | **3,467,474** |
| Mənfəət vergisi xərci | | (719,558) |
| **İl üzrə xalis mənfəət və digər məcmu gəlir** | | **2,747,916** |

| İLKİN KAPİTALIN HƏRƏKƏTİ HAQQINDA HESABAT | Nizamnamə kapitalı | Yenidən qiymətləndirmə üzrə ehtiyat | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **01 yanvar 2022-ci il** | **115,388** | **8,237,704** | **2,933,652** | **11,286,744** |
| İl üzrə mənfəət | - | - | 2,747,916 | **2,747,916** |
| **31 dekabr 2022-ci il** | **115,388** | **8,237,704** | **5,681,568** | **14,034,660** |

| İLKİN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT | Qeydlər | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| **Vergidən əvvəlki mənfəət** | | **3,467,474** |
| Qeyri-pul maddələri üzrə düzəlişlər: | | |
| Əsas vəsaitlərin köhnəlmə xərcləri | 14 | 211,869 |
| Qeyri-maddi aktivlərin amortizasiyası xərcləri | 14 | 2,433 |
| İstifadə olunmamış məzuniyyət üçün ehtiyatın bərpası | 21 | (61,508) |
| Maliyyə aktivləri üzrə GKZ xərci | 17 | 32,707 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **3,652,975** |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | |
| Ticarət debitor borclar | 17 | (724,308) |
| Mal-material ehtiyatları | 18 | 85,509 |
| Digər aktivlər | 19 | (5,907) |
| Ticarət və digər kreditor borcları | 20 | 135,092 |
| Digər vergi öhdəlikləri | | (72,574) |
| Digər öhdəliklər | 21 | 53,348 |
| **Vergidən və faizdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **3,124,135** |
| Ödənilmiş mənfəət vergisi | | (677,160) |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **2,446,975** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitləri** | | |
| Bina, tikili və avadanlıqların alınması | 14 | (6,402,509) |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | **(6,402,509)** |
| **Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitləri** | | |
| Səhmdardan alınan borc vəsaitlərindən daxilolma | 9 | 4,219,161 |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **4,219,161** |
| **Pul və pul vəsaitlərində xalis artım** | | **263,627** |
| **Pul vəsaitləri və onların ekvivalentləri, ilin əvvəlinə** | **16** | **781,202** |
| **Pul vəsaitləri və onların ekvivalentləri, ilin sonuna** | **16** | **1,044,829** |

## "Çinar Park" Qapalı Səhmdar Cəmiyyətinin

**İlkin Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**

**31 dekabr 2022-ci il tarixində bitən il üzrə**

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**"Çinar Park" Qapalı Səhmdar Cəmiyyəti Rəhbərliyinə:**
**Şərti müsbət RƏY**

Biz "Çinar Park" Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2022-ci il tarixinə təqdim edilən ilkin maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə bitən il üzrə ilkin mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, ilkin kapitalda dəyişikliklər və ilkin pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq. Bu, ilkin maliyyə hesabatları Cəmiyyətin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") keçməsi prosesinin bir hissəsi olaraq hazırlanmışdır.
Bizim rəyimizə əsasən, Şərti Müsbət Rəy üçün Əsas paraqrafında təsvir olunan məsələnin təsiri istisna olmaqla, 31 dekabr 2022-ci il tarixinə ilkin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından MHBS-nin 1 saylı MHBS əsasında necə tətbiq edilməsini, o cümlədən 31 dekabr 2023-ci il tarixinə MHBS-yə uyğun maliyyə hesabatlarının ilk tam toplusu rəhbərlik tərəfindən hazırlandığı zaman qüvvədə olması gözlənilən standart və şərhlər və qəbul edilməsi gözlənilən qaydalar haqqında rəhbərliyin fərziyyələrini təsvir edən 3-cü Qeyddə göstərilən əsasa uyğun olaraq hazırlanmışdır.

**Şərti müsbət rəy üçün əsas**
31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatda bina, tikili və avadanlıqların tərkibində binaların qalıq dəyəri 6,405,238 AZN göstərilib. Cəmiyyətin uçot siyasətinə əsasən bu kateqoriya 16 saylı MUBS-nin (Bina, tikili və avadanlıqların) yenidən qiymətləndirmə modeli ilə ölçülür. Cəmiyyət 31 dekabr 2022-ci il tarixinə binaların yenidən qiymətləndirməsini həyata keçirməyib və maliyyə hesabatlılığı məqsədilə ən son binaların qiymətləndirməsini 16 aprel 2019-cu il tarixinə həyata keçirib. Müvafiq olaraq, biz 31 dekabr 2022-ci il tarixinə binaların balans dəyəri ilə onların ədalətli dəyərləri arasında mümkün fərqlərlə bağlı əminlik əldə edə bilmirik.
Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "İlkin maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz ilkin maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**İlkin maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyətləri verilmiş şəxslərin məsuliyyəti**
Rəhbərlik ilkin maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin mövcud olmadığı ilkin maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
İlkin maliyyə hesabatlarını hazırladıqda rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda rəhbərlik

Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin ilkin maliyyə hesabatlarının hazırlanma prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**İlkin maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**
Bizim məqsədimiz saxtakarlıq, yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq ilkin maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin. Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq ilkin maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir, rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi üzrə məlumat əldə edirik;
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk;
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti ilkin maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər;
- İlkin maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

**Sərbəst auditor**
**RSM Azerbaijan**

**20 sentyabr 2023-cü il**
**Bakı, Azərbaycan Respublikası**

# Qarabağda yetişdirilən üzüm sortundan alınan şərabın təqdimatı olub

"İkinci üzüm və şərab festivalının ən qürurverici tərəfi odur ki, ilk dəfə Qarabağda yetişdirilən "Xındoqnu" üzüm sortundan alınan şərabın təqdimatı olub".



Bunu açıqlamasında Dövlət Turizm Agentliyinin mətbuat katibi Gülnar Mustafayeva bildirib.
Onun sözlərinə görə, sovet dövründə "Xındoqnu" məşhur üzüm sortu olub və istehsalın 4,1 faizini təşkil edib.
***"Şərab hələlik satışa çıxarılmayıb, lakin ixracı da nəzərdə tutulub. Bu vaxta qədər 2 min litr şərab istehsal olunub. Şərabın zavodu Xocavəndin Tuğ kəndində yerləşir"***, - deyə Gülnar Mustafayeva əlavə edib.

# Ukrayna Azərbaycandan tərəvəz alışını kəskin artırıb

Hazırda müharibə şəraitində olan Ukrayna ötən üç rüb ərzində Azərbaycandan tərəvəz məhsullarının alışını artırıb.
Dövlət Statistika Komitəsindən bildirilib ki, Azərbaycan ilin ilk 9 ayında Ukraynaya 5 450 ton ($1 607 min) kartof, 6 758 ton ($2 072 min) soğan, 860 ton ($239 min) yerkökü ixrac edib.
Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə kəskin artımdır. Belə ki, ötən ilin eyni dövründə Azərbaycan Ukraynaya 1 413 ton ($561 min) kartof, 850 ton ($240 min) soğan və cəmi 35 ton yerkökü ($12 min) satmışdı.
Ümumilikdə Ukraynaya 14 111 tonluq ($4 464 min) tərəfəz ixrac edilib.



# "Bu il Azərbaycanda 6 milyon manat aqrar sığorta ödənişi ediləcək"

Bu il Azərbaycanda təbii fəlakətlər və digər hadisələr nəticəsində əkin sahələrinə dəyən zərərlər üzrə təqribən 6 milyon manat sığorta ödənişi ediləcək.
Bu barədə Aqrar Sığorta Fondundan (ASF) bildirilib. Bu, ötən ilki sığorta ödənişindən 2,6 dəfə çoxdur. Belə ki, ölkədə fermerlərə 2021-ci ildə 1,7 milyon manat, 2022-ci ildə isə 2,3 milyon manat sığorta ödənişi edilib.

# Verilmiş ipoteka kreditlərinin sayı 47,5 minə yaxınlaşıb

"Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" ASC-nin xətti ilə verilmiş ipoteka kreditlərinin sayı 47 min 493-ə çatıb. Verilmiş kreditlərin cəmi məbləğ 2 milyard 846 milyon 888 min manatı keçib. Fond tərəfindən kirayəçilərin istifadəsinə verilmiş yaşayış sahələrinin sayı isə 4 min 227-yə çatıb.



# «Fitch Solutions» Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnozunu açıqlayıb

"Fitch Group»a aid olan "Fitch Solutions" (FS) qarşıdakı 2024-cü il üzrə Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnozlarını açıqlayıb. FS 2024-cü ildə Azərbaycanda iqtisadi artımın 3.1% olacağını proqnozlaşdırıb.
"Fitch Solutions" 2024-cü il üzrə nominal ÜDM-in 168,6 mlrd. manata, adambaşına düşən ÜDM-in isə 16115 manata çatacağını proqnozlaşdırıb.




***"Neft və qaz komandamız orta illik neft qiymətlərinin 2023-cü ildəki 80 dollar/bareldən 2024-cü ildə 83 ABŞ dolları/barelə yüksələcəyini proqnozlaşdırır. Daha yüksək neft qiymətləri və hasilatı 2024-cü ildə daha güclü artıma kömək edəcək, eyni zamanda inflyasiyanın tənzimlənməsi və aşağı uçot dərəcələri ev təsərrüfatları və investorlar üçün şərtləri asanlaşdıracaq. Biz inflyasiyanın 2024-cü ildə orta hesabla 7,5% təşkil edərək, 2024-cü ilin sonunda 6,2%-ə enəcəyini gözləyirik. Eyni zamanda, Azərbaycan Mərkəzi Bankının 2024-cü ilin sonuna qədər uçot dərəcəsini 8,25%-ə qədər azaldacağını proqnozlaşdırırıq"***, - FS-nin açıqlamasında əlavə edilib.

# Qocaman iqtisadçı pedaqoqun həyat yolu

***Nəsrəddin Tusi "Əxlaqi-Nasiri" əsərində yazır ki, Makedoniyalı İsgəndərdən soruşurlar ki, "atanı çox sevirsən, yoxsa müəllimin Aristoteli?" İsgəndər cavab verir ki, müəllimimi. Səbəbini belə izah edir ki, atam məni fani dünyaya gətirib, amma müəllimim isə mənə əbədiyyət bəxş edib.***

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Mühasibat uçotu" kafedrasının dosenti, iqtisad elmləri namizədi, qocaman pedaqoq Əli Adışirin oğlu Sadıqovun adı Azərbaycan iqtisad-maliyyə sferasında çalışan ziyalılara yaxşı tanışdır. Uzun illərdən bəri Azərbaycan Dövlət İqtisad Universitetində Mühasibat uçotu fənnini tədris edən Əli müəllimin bir neçə nəsil iqtisadçı-mühasibin yetişməsində böyük zəhməti olub. Həyatın sərt üzünü görmüş, çətin və keşməkeşli ömür yaşamış bir şəxs kimi Əli müəllimin həyatı və fəaliyyəti hər bir gəncə örnək ola bilər.



Sadıqov Əli Adışirin oğlu 19 avqust 1938-ci ildə Azərbaycan Respublikasının İmişli rayonunun Qızılkənd kəndində anadan olub. Repressiya illərində dünyaya gələn, uşaqlığı ailəsinin sürgün olunduğu Qazağıstanda keçən Əli Sadıqov 1946-cı ildə ailəsi ilə Vətənə qayıdaraq, doğulduğu İmişli rayonunda orta təhsil alır.

1957-ci ildə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olur, 1959-1963-cü illərdə hərbi xidmətə yollanır.

1969-cu ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsini bitirərək, doğma rayonunda işləyir, həmçinin həmin il Azərbaycan Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun əyani aspiranturasını bitirir.

Baş mühasibin köməkçisi vəzifəsindən başlayaraq, addım-addım irəliləyən Əli müəllim 1966-cı ildən həyatını elmə həsr etməyi qərara alır və 1972-ci ildən 2018-ci ilədək ADİU-də çalışır. Taleyini bu ali təhsil ocağı ilə bağlayan Əli Sadıqov burada əsl məktəb keçir, bacarıqlı pedaqoq, zəhmətkeş alim kimi tanınır. Elmi-pedoqoji fəaliyyəti dövründə Əli müəllim 85-dən çox elmi məqalənin, 10-dan artıq dərslik və dərs vəsaitinin müəllifi olur. Fəaliyyətini elmi tədqiqat və metodiki işlə əlaqələndirən Əli Sadıqovun dərin nəzəri təhlilə, zəngin statistik, konkret materiallara əsaslanan müəllif əsərlərində, elmi tədqiqatlarında ölkədə mühasibat uçotunun problemləri, inkişaf yolları tədqiq edilib. Ömrünün böyük bir hissəsini iqtisadiyyat elminin nəzəri və praktiki problemlərinin tədqiqinə, ölkəmiz və iqtisadiyyatımız üçün zəruri olan mühasibat uçotunun təkmilləşdirilməsi məsələlərinə həsr edən pedaqoqun mühasibat uçotunun sosial-iqtisadi inkişafında roluna aid tədqiqat işlərinin nəticələri olan məqalələri elmi ictimaiyyətdə dərin maraq doğurub.

Mühasibat uçotunun ölkəmizdə inkişafına böyük töhfələr verən Əli müəllimin mənim həyatımda da əvəzsiz rolu olub. Uşaqlıq dövrlərimi xatırladıqca anlayıram, o, ilk olaraq məni qorxduğum hər şeydən qoruyan bir qəhraman – ata, daha sonra həyatda doğru ilə yanlışın nə olduğunu öyrədən bir həyat müəllimi idi. İlk atamdan öyrəndim mən güclü olmağı, öyrənməyi və öyrətməyi bu qədər sevməyi. Mən atamla sevdim müəllimlik peşəsini... Bu gün onun yolu ilə getməyin qürurunu daşıyıram ürəyimdə.

Atam həm də ölkəmizdə həyata keçirilən sosial-iqtisadi proseslərə əsl ziyalı məsuliyyəti ilə münasibət bildirərək, həmin proseslərin tədqiq olunmasına sanballı töhfə verib. Bu, onun oxuduğu mühazirələrdə, elmi məqalələrində öz əksini tapıb. Universitetdə pedaqoq kimi çalışdığı illər ərzində topladığı zəngin təcrübəsi, başlıca prinsipləri yüksək məsuliyyət, tələbkarlıq və çalışqanlıq olan elmi keyfiyyətləri onu insan kimi xarakterizə edir.

Öz elmi axtarışlarını pedoqoji sahədəki uğurlu fəaliyyəti ilə paralel şəkildə aparan bu gözəl insan təcrübəli pedaqoq, çoxcəhətli və çoxsahəli fəaliyyət göstərən əsl ziyalı idi. O, həmkarlarına və tələbələrinə qarşı səmimi, qayğıkeş münasibəti ilə onların rəğbətini qazanmış, fəaliyyəti, peşəkarlığı universitet rəhbərliyi tərəfindən dəfələrlə təşəkkürlərlə qiymətləndirilmişdi.

Atam son dərəcə ailəcanlı bir insan olmaqla, öz ailəsini, uşaqlarını çox sevirdi. Nəvələrinin tərbiyəsi, təhsili və qayğısı daim onun diqqət mərkəzində idi. İstər pedaqoq, istərsə də elm adamı kimi işinin çox olmasına baxmayaraq, o, həmişə uşaqlarının, nəvələrinin yüksək insani hisslərlə böyüməsinə, müasir dövrün tələblərinə uyğun təhsil almalarına və nəhayət, millət üçün yararlı insan kimi yetişmələrinə xüsusi fikir verirdi. Onun 6 övladı - 2 oğlu, 4 qızı, 10 nəvəsi və 7 nəticəsi var. Təsadüfi deyil ki, məndən başqa, qardaşım Tahir də məhz onun yolunu davam etdirir.

50-100 il sonra gələn nəsillər, universiteti bitirmiş məzunlar bu alimin böyüklüyünü, insanpərvərliyini, bəlkə də daha yaxşı dərk edəcəklər və onun tələbəsi olmuş şəxslərə qibtə edəcəklər. Qeyd edim ki, onun tələbələrinin bir çoxu onunla eyni və digər universitetlərdə pedaqoji fəaliyyət göstərirlər.

Uçot-iqtisad fakültəsini, mühasibat uçotu və audit ixtisasını bitirən bir məzun tapılmaz ki, onun peşəkar mühasib kimi formlaşmasında atamın rolu olmasın. Çünki o, elə bir alim və ata kimi formalaşmışdı ki, onun elmindən, savadından, intellektual qabiliyyətindən və müəllimliyindən hər kəsə pay düşüb. 100 il keçsə də, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) məzunu olacaq hər bir şəxs onun kitabları ilə tanış olduqdan sonra da bu sözləri qürurla və fəxrlə deyəcək. Onu müəllim və mənəvi ata adlandıranlar yanılmırlar, o, doğrudan da, əsl alim idi. Atam fikrini heç kimə zorla qəbul etdirməzdi, hər şeyi məntiqlə sübut edərdi.

19 avqust 2023-cü il tarixində atamın 85 yaşı tamam olacaqdı. O, bu günü səbirsizliklə gözləyirdi, yubileyləri öz dostları, həmkarları, qohumları, övladları, nəvələri və nəticələri ilə keçirməyi çox sevərdi. Çox heyif ki, amansız xəstəlik 23 may 2023-cü il tarixində onu bizdən aldı, bu xoş günü birlikdə yaşamaq bizə nəsib olmadı.

*Allah sənə rəhmət eləsin, ATA.*
*Məkanın cənnət olsun!*

**Azərbaycan Kooperasiya Unversitetinin Mühasibat uçotu və audit kafedrasının dosenti, i.e.n. Cəfərova Şəhla Əli qızı**

# Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş beynəlxalq elmi konqres keçirilib





***27-28 noyabr 2023-cü il tarixlərində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı, Mərkəzi Gömrük Hospitalının rəsmi tərəfdaşı Florence Nightingale Xəstəxanalar Qrupunun, "Humana" və "World Medicine" şirkətlərinin dəstəyi ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Ana və uşaq sağlamlığı: mövcud problemlərə müasir baxış" mövzusunda beynəlxalq elmi konqres keçirilib.***

Konqresin açılış mərasimində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, t.e.d., Əməkdar həkim Rəşad Mahmudov və Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, s.e.d., professor Hicran Hüseynova çıxış ediblər, tədbir iştirakçılarını salamlayaraq, konqresin işinə uğurlar diləyiblər.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov çıxışında bildirib ki, Heydər Əliyevin ölkəmizdə səhiyyənin inkişafında çox böyük əməyi və əvəzsiz rolu olmuşdur, eyni zamanda ulu öndər ana və uşaq sağlamlığı ilə bağlı məsələlərə həmişə xüsusi diqqət yetirmiş, bu sahə daim onun nəzarəti və qayğısı altında olmuşdur. O, konqresdə müzakirə ediləcək bir sıra aktual mövzular: uşaqlıq boynu xərçənginin profilaktikası, vaxtından əvvəl doğuşlar, əhalinin yaşlanması, onun tərkibində yaşlı və ahıl insanların payının artması, menopauza dövründə qadınlara keyfiyyətli və adekvat tibbi xidmətin göstərilməsi haqqında ətraflı məlumat verib.

Rəsmi açılış hissəsindən sonra əbədiyaşar lider Heydər Əliyevə həsr edilmiş sənədli film nümayiş etdirilib.

Konqresin ikinci günündə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, t.e.d., Əməkdar həkim Rəşad Mahmudov, Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru Rauf Bəylərov, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktor vəzifəsini müvəqqəti icra edən Aynur Poluxova, BMT Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı Nümayəndəliyinin əməkdaşı Töhfə Cəmilova, TƏBİB-in Tibbi fəaliyyətin təşkili departamentinin rəhbəri Teymur Mirzəbəyli də rəsmi açılışda çıxış ediblər.

***2 gün davam edən "Ana və uşaq sağlamlığı: mövcud problemlərə müasir baxış" mövzusunda beynəlxalq elmi konqresin müxtəlif mövzulu panellərində Azərbaycan, Türkiyə və İngiltərədən olan yüksəkixtisaslı mütəxəssislərin təqdimatları dinlənilib.***

Konqresdə Mərkəzi Gömrük Hospitalının mama-ginekoloqu Dr.Sədi Allahverdiyev, Hospitalın Urologiya şöbəsinin rəisi, uzman uroloq Bəhruz Xalıqov, Mamalıq-ginekologiya şöbəsinin rəisi, t.ü.f.d., mama-ginekoloq Təranə Bayramova, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, t.e.d., Əməkdar həkim Rəşad Mahmudov, Cərrahiyyə şöbəsinin rəisi Dr.Vüsal Cəfərov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dos. İsmayıl Əfəndiyev təqdimatlarla çıxış ediblər. Təqdimatlar ətrafında tədbir iştirakçılarının sualları cavablandırılıb.

***Konqres çərçivəsində 27 noyabr tarixində "Doğum zalında neonatal reanimasiya", 28 noyabr tarixində Kolposkopiya kursu keçirilib.***

O cümlədən, konqres çərçivəsində Türkiyə və İngiltərədən olan yüksəkixtisaslı mütəxəssislər tərəfindən həyata keçiriləcək "Doğum zalında neonatal reanimasiya" və "Kolposkopiya" kursu 5 DTT balına layiq görülüb.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**




**Azəri Light və Brent markalı neftin bir barelinin 23-29 noyabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

# Günəşin tədqiqi üçün yeni cihaz istifadəyə verilib

Günəşin fundamental tədqiqi üçün dünyada analoqu olmayan çoxdalğalı radiohelioqraf istifadəyə verilib.

Bu barədə Elm və Təhsil Nazirliyi N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası məlumat yayıb. Bildirilir ki, İrkutsk Rusiya Elmlər Akademiyasının (RAN) Günəş-Yer Fizikası İnstitutundan verilən məlumata görə, radiohelioqraf cari ilin yayında sınaq rejimində fəaliyyətə başlayıb və hazırda tam istifadəyə verilib.



Sözügedən qurğu Günəşi radio diapazonda müşahidə etməyə, Günəş tacının müxtəlif təbəqələrində tədqiqatlar aparmağa, onun aktivliyini ölçməyə və Günəşətrafı fəzanın 3D modellərini qurmağa imkan yaradır. Çoxdalğalı radiohelioqraf 3 radioteleskopdan və 3-24 GHz diapazonunu əhatə edən 528 antenadan ibarətdir.

Cihazın əsas məqsədi fundamental tədqiqatdır, lakin Günəş fəallığının yaratdığı mənfi hadisələrin və onların bəşəriyyət üçün mənfi nəticələrinin proqnozlaşdırılması kimi bir sıra tətbiqi problemlər də radiohelioqrafın köməyilə həll oluna bilər.

Qeyd edək ki, analoji konstruksiya Çində də tikilib, lakin hələ istifadəyə verilməyib.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə energetika nazirinin
müavini Kamal Abbasova anası
**ŞÖLƏ İSMAYILOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**